

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 131 (21.792)

14 iyul 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 1969-cu il 14 iyul: Azərbaycanın sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının başlanğıc tarixi

*Azərbaycanın iyirminci əsrdəki inkişafının əsası 1969-cu ilin 14 iyulunda qoyulmuşdur. Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə nail olmuş, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görmüşdür. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilmişdi. Ona görə də 1969-cu ilin 14 iyulunda ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir.*



Ulu öndərimizin ölkəmizə rəhbərliyinin birinci dövrü eyni zamanda milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc dövrüdür. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu aradan qaldırmış, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırmışdır. Hər bir Azərbaycan vətəndaşına belə bir inam aşılanmışdı ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq. Müstəqilliyi əldə etmək üçün isə möhkəm təməl, iqtisadi inkişaf lazımdır. Ulu öndərimiz Azərbaycan xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratmışdı.

Türk dünyasının böyük oğlu Heydər Əliyev öz xidmətləri ilə hər bir azərbaycanlıya Vətən üçün, Azərbaycan üçün qurub-yaratmaq, yorulmadan xidmət etmək fəlsəfəsini aşılamış, Azərbaycanı 1969-1982-ci illərdə inkişaf etmiş sənaye-aqrar respublikasına çevirərək bugünkü müstəqilliyimizin təməlini qoymuşdur. 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bütün bunlar Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin bəhrələri idi.

Sonralar həmin dövrdə həyata keçirilən tədbirlərdən danışan ulu öndər demişdir: ***"Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

1941-1945-ci illərdə SSRİ-nin neftə olan ehtiyacının 75 faizini ödəməsinə baxmayaraq, Azərbaycanın neftayırma zavodları 1970-ci illərdə müasir tələblərlə ayaqlaşmırdı. Ulu öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən əsrin 70-80-ci illərində Azərbaycanın gələcəyi naminə həyata keçirilən tədbirləri belə xarakterizə etmişdir: ***"Tarixilik baxımından olduqca qısa bir müddətdə – cəmi 14 il ərzində Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin fəlsəfəsini təşkil edirdi. Bu da ondan ibarət idi ki, Azərbaycan qısa müddətdə öz tarixi taleyinin sahibi oldu; ölkəmiz başqa müttəfiq respublikaların 50 ilə keçdiyi yolu nəinki 14 ilə qət etdi, hətta bu respublikaları da qabaqlayaraq aqrar-sənaye kompleksinin güclü inkişaf etdiyi lider respublika kimi şöhrət qazandı".***

Azərbaycanda milli dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız ulu öndərimiz Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı, cəsarətli bir dövlət xadimi, siyasi lider reallaşdıra bilərdi. Bu istiqamətdə o dövrdə görülən işlərin bəhrəsini biz indi daha aydın dərk edirik. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycandakı memarlıq abidələrində bərpa işləri aparılmış, tarix və mədəniyyət abidələrinin pasportu hazırlanmış, görkəmli şair və yazıçıların yubileyləri keçirilmiş, tarixi şəxsiyyətlərin və xalq qəhrəmanlarının abidələri ucaldılmış, onların adlarını daşıyan yaşayış məntəqələri salınmış, milli varlığımızın, dəyərlərimizin və adət-ənənələrimizin təbliğinə xidmət edən filmlər çəkilmişdir.

1969-1982-ci illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdır. XX əsrin 70-80-ci illərində ulu öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər.

Ulu öndərimizin XX əsrin 70-80-ci illərindəki ən böyük xidmətlərindən biri də milli hərbçi kadrların hazırlanması sahəsində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasıdır. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyində mövcud olan 54 ən qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. Xüsusi vurğulamaq lazımdır ki, ümummilli liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Bir faktı da qeyd edək ki, ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misligörünməmiş cəsarət, siyasi müdriklik nümayiş etdirmiş, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ulu öndərimizin milli dəyərlərin qorunması, milli şüurun oyanışı istiqamətində həyata keçirdiyi tədbirlərdən danışarkən demişdir: ***"Ötən əsrin 70-ci illərində baş vermiş proseslərin təhlili göstərir ki, ulu öndərimiz genişmiqyaslı maarifçilik təşəbbüsünü milli ruhun yüksəlişi və millətin tarixi yaddaşının bərpası vəzifələri ilə vəhdət halında götürür, Azərbaycan dilinin tədrisi məsələlərini diqqətdə saxlayırdı. Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, akademik nəşrlərin hazırlanması, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir".***

1969-cu ildən başlanan kompleks inkişaf dinamikası Azərbaycanın digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasını da öz əhatəsinə almışdı. Reallıq budur ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı sıralarda qərar tuturdu. Ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış qərarlar bu geriliyin aradan qaldırılması və Naxçıvanın inkişaf yoluna çıxarılmasında mühüm rol oynamışdır. Muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı təxminən, üç dəfə artmışdır. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır.

Ümummilli liderin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlardan biri – Araz çayının üzərində su elektrik stansiyasının tikilməsi muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

1990-1993-cü illərdə Azərbaycanla yanaşı, Naxçıvanın da başı üzərini qara buludların aldığı bir vaxtda ulu öndər doğma Naxçıvana qayıtmışdır. Bundan sonra qədim diyarın xilası üçün lazım olan bütün addımlar atıldı. Eyni zamanda, yalnız muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mühüm rol oynayan qərarlar qəbul olundu. 1993-cü ilin yayında ölkədə qardaş qanı töküldüyü və milli dövlətçiliyimiz ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalq yenidən nicatını ulu öndərin hakimiyyətə gəlişində gördü, dahi rəhbəri Naxçıvandan Bakıya dəvət etdi. Vətəninin və xalqının taleyinə biganə qala bilməyən ümummilli lider 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya qayıtdı və bu QAYIDIŞ Vətənin xilası, xalqın qurtuluş tarixinə çevrildi, Azərbaycan 1969-cu ildən başlanan quruculuq yoluna döndü. Torpaqlarımızın işğalının qarşısı alındı, milli ordu yaradıldı, sabitlik təmin olundu. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verdi. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi hərtərəfli inkişaf edən, dünyada söz sahibinə çevrilən müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinə səbəb oldu.

Azərbaycanın müasir tarixinin fenomen şəxsiyyəti kimi ümummilli liderimiz Heydər Əliyev xalqın qəlbində özünə möhtəşəm abidə ucaltmışdır. O, müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, əbədi müstəqillik tarixini yaratmışdır. Ümummilli liderimizin siyasi fəaliyyəti Azərbaycana xidmətin ən kamil nümunəsidir. Bu gün əsas nailiyyətimiz sayılan ictimai sabitliyin davamlı prosesə çevrilməsi və xalqın sosial rifah halını təmin edən inkişaf strategiyası ulu öndərin dövlətçilik konsepsiyasının uğurla davam etdirilməsinin nəticəsidir. İrəlidə Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını Heydər Əliyev quruculuq xəttinin daha böyük uğurları, nailiyyətləri gözləyir.

**"Şərq qapısı"**

# Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib

***Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 48-ci ildönümü münasibətilə Heydər Əliyev lektoriyasının 215-ci məşğələsi keçirilib.***



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu olduğunu deyib. Vurğulanıb ki, xalq və dövlət naminə gərgin, qətiyyətli, fədakar və yorulmaz fəaliyyət dövlətçilik tariximizdə görkəmli siyasi xadim Heydər Əliyevi Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə yüksəldib. Dahi şəxsiyyət Azərbaycanda siyasi hakimiyyətə gəlməklə milli inkişaf platformasını gerçəkləşdirməyə müvəffəq olub ki, bu da, öz növbəsində, Azərbaycanı dövlət müstəqilliyinə hazırlamaq idi. Diqqətə çatdırılıb ki, yaşadığımız bu firavan günlərin, neçə-neçə aydın səhərlərin, əbədi və dönməz müstəqilliyin təməli məhz o illərdə qoyulub. Bu mənada, ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu il 14 iyul tarixi Azərbaycanın ən yeni tarixinin dönüş mərhələsinin başlanğıcıdır.

“Daimi inkişafa və tərəqqiyə qovuşan yolun başlanğıcı” mövzusunda çıxışında Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru İsmayıl Zeynalov qeyd edib ki, 14 iyul tarixi Azərbaycanın həyatında ona görə dönüş günüdür ki, o gündən Azərbaycan Heydər Əliyev yolu ilə inkişaf edib, müstəqilliyə can atıb. Bu mənada, ulu öndər Heydər Əliyevin respublikamıza birinci dəfə rəhbərlik etdiyi dövr – 1969-1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə düşüb.

Bildirilib ki, dahi rəhbər Heydər Əliyev iki bir-birinə zidd olan quruluşda – Sovetlər Birliyi dövründə və müstəqillik illərində Azərbaycanı məharətlə idarə etməyi bacarıb. Müqayisə aparsaq, görərik ki, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə iqtisadiyyatın artım tempinə görə o vaxt SSRİ respublikaları arasında qabaqcıl mövqeyə çıxan Azərbaycan məhz bu gün dünyada ən sürətli inkişaf edən iqtisadiyyata malik ölkə kimi tanınır. Bu inkişaf, bu yüksəliş istər o dövrdə, istərsə də sonrakı illərdə və indi həyatımızın bütün sahələrində özünü göstərməkdədir.

Universitetin elmi işlər üzrə prorektoru, fizika üzrə fəlsəfə doktoru, dosent Mübariz Nuriyev isə qeyd edib ki, Azərbaycan deyəndə göz önündə əzəmətli, əlçatmaz bir zirvə – Heydər Əliyev zirvəsi ucalır. Bu zirvə dünyanın hər yerindən görünür. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın ucalığı, əzəməti, vüqarıdır.

**Səadət ƏLİYEVA**

# Çin Xalq Respublikasının “Huawei” şirkətində istehsalat təcrübəsi keçəcək tələbələrlə görüş



***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə Çin Xalq Respublikasının “Huawei” şirkəti tərəfindən ali təhsil ocaqlarında Azərbaycanda ilk dəfə olaraq “Gələcəyin İKT sahəsindəki toxumları” adlı proqram-layihə həyata keçirilir.***

Həmin proqram-layihə çərçivəsində Naxçıvandan olan 12 tələbə Çinin “Huawei” şirkətində istehsalat təcrübəsi keçəcək. Tələbələr Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən keçirilən müsabiqə yolu ilə seçiliblər.

Dünən Çin Xalq Respublikasına istehsalat təcrübəsinə göndəriləcək tələbələrlə görüş olub.

Rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov görüşdə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamla ali təhsil ocaqlarının bir neçə ixtisası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Ötən müddət ərzində müvafiq ixtisaslarda təhsil alan tələbələrlə görüşlər keçirilib, onların təcrübi biliklərə yiyələnmələri üçün köməklik göstərilib.

Rövşən Məmmədov qeyd edib ki, nazirlik dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan Çin Xalq Respublikasının “Huawei” şirkəti ilə uzun illərdir, uğurlu əməkdaşlıq edir.

Qeyd olunub ki, ötən ilin sentyabr ayında “Naxçıvan” Universitetində İnformasiya Texnologiyaları Mərkəzi yaradılıb. Mərkəzdə “Huawei” şirkətinin istehsalı olan avadanlıqlar, yeni nəsil çeviricilər və şəbəkə avadanlıqları qurulub. “Huawei” şirkətinin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq treninq proqramı həyata keçirilib və bu proqrama Naxçıvan Dövlət Universiteti və “Naxçıvan” Universiteti qatılıb. İkihəftəlik proqram çərçivəsində tələbələr əvvəlcə Pekinə gedərək Çin mədəniyyəti ilə tanış olacaqlar. Daha sonra onlara “Huawei” şirkətinin Şenjen şəhərində yerləşən ofisində müasir texnologiyaların öyrənilməsi və istehsalı üzrə təlimlər keçiriləcək.

Tədbirin sonunda tələbələrə uğurlar arzulanıb və onlara hədiyyələr təqdim olunub.

**✍ Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri üzrə 2016-2017-ci tədris ilində tam orta təhsil səviyyəsində qızıl və gümüş medala layiq görülmüş məzunlara medallar təqdim edilib.***

# Bir qrup məzuna qızıl və gümüş medallar təqdim edilib



Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov bildirib ki, muxtar respublikamızda bütün sahələrlə yanaşı, təhsil sahəsində də ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi yüksək diqqət və qayğının nəticəsində ilbəil yeni təhsil müəssisələrinin tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması, ümumtəhsil məktəblərinin ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmini, eyni zamanda təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində davamlı işlər aparılır.

Təhsil naziri bildirib ki, hər cür qayğı ilə əhatə olunmuş məktəblilərin, xüsusən də buraxılış siniflərini bitirən məzunların biliyinin yekun qiymətləndirilməsinin aparılması və nəticələrə uyğun olaraq təltif olunması diqqətdə saxlanılan məsələlərdəndir. Tam orta təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların fərqlənmə attestatı, qızıl və ya gümüş medallarla təltif olunması da bu gün gənclərimizə göstərilən dövlət qayğısından xəbər verir. “Təhsil haqqında” Qanunun 19.8-ci maddəsinə uyğun hazırlanmış qaydalara əsasən, ümumtəhsil məktəbində təhsil aldığı müddətdə təhsildə xüsusi nəticələr ilə yanaşı, nümunəvi davranışı ilə fərqlənən, respublika fənn olimpiadalarının yekun mərhələsində, rayon (şəhər), ölkə və beynəlxalq səviyyəli bilik yarışlarında, müsabiqə və layihələrdə mükafata layiq görülən məzunlar qızıl və ya gümüş medalla təltif olunurlar.

Muxtar respublika rəhbərinin təhsilə göstərdiyi qayğı nəticəsində bu il də məzunlarımızın bir qrupu təltifə layiq görülüb. Belə ki, 2016-2017-ci tədris ilinin yekunlarına görə ümumtəhsil məktəblərini ümumi orta təhsil bazası üzrə bitirən 3720 məzundan 79-u fərqlənmə attestatına, tam orta təhsil bazası üzrə 2973 məzundan isə 113-ü fərqlənmə attestatına, 6-sı gümüş medala, 15-i qızıl medala layiq görülüblər. Muxtar respublikamızda yaradılmış şərait nəticəsində qabaqcıl təhsil mühiti formalaşıb, şagirdlərin təhsilə marağı artıb. Bunu son illər ali və orta ixtisas təhsili məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələrində qeydə alınan irəliləyişlər bir daha göstərir.

Vurğulanıb ki, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, son illər məktəbi yüksək qiymətlərlə bitirən məzunlardan 86-sı qızıl, 69-u isə gümüş medala layiq görülüb. Həmin məzunlar onlara göstərilən etimadı doğruldub, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda 500-700 bal intervalında nəticə göstəriblər.

Sonra qızıl və gümüş medalların təqdimatı olub.

Məmməd Qəribov qızıl və gümüş medallarla təltif olunan, fərqlənmə attestatına layiq görülən və ümumilikdə, 2016-2017-ci tədris ilində məktəbi bitirən bütün məzunları təbrik edib, qarşıdan gələn ikinci mərhələ qəbul imtahanlarında onlara uğurlar arzulayıb.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin məzunu, qızıl medala layiq görülmüş Tunay Rzayev göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib.

Qeyd edək ki, görüşdə tam orta təhsil səviyyəsində 113, ümumi orta təhsil səviyyəsi üzrə isə 79 fərqlənmə attestatı verilib.

**✍ Səbuhi HƏSƏNOV**

# “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin ikinci cildi nəşrə hazırlanır

***Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin ikinci cildinin hazırlanması istiqamətində görülən işlərlə əlaqədar işçi qrupunun görüşü olub.***

AMEA-nın Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşları, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov və coğrafiya elmləri doktoru Zakir Eminovun iştirak etdikləri görüşdə “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin ikinci cildinin fəsillər üzrə xronoloji ardıcıllıqla hazırlanan məqalələrinə baxılıb. Yeni nəşrin elmi dəyərini daha da artıracaq əlavələr – şəkillər, xəritələr müzakirə edilib.

Qeyd edək ki, “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin ikinci cildində Naxçıvanın iqtisadi-sosial coğrafiyasının hərtərəfli təhlilinə aid materiallar veriləcək. Belə ki, kitabda muxtar respublika əhalisinin təbii artım xüsusiyyətləri, məskunlaşma məsələləri, yaşayış məntəqələrinin funksional problemləri, intensiv baş verən dəyişikliklərlə bağlı ən yeni statistik məlumatlar öz əksini tapacaq. Eyni zamanda Naxçıvanda sənayenin, kənd təsərrüfatının, nəqliyyatın müstəqillik illərində inkişaf dinamikası barədə ətraflı məlumat veriləcək. Sosial sahədə baş verən əhəmiyyətli dəyişikliklər konkret faktlarla ikinci cilddə geniş oxucu kütləsinə təqdim olunacaq.

Məlumat üçün onu da qeyd edək ki, ikicildliyin birinci cildində zəngin təbii şəraitə və təbii ehtiyatlara malik olan muxtar respublika ərazisinin fiziki coğrafiyasının müxtəlif sahələrini əhatə edən ən son elmi tədqiqatların nəticələrinə dair məlumatlar yer alıb. Fundamental əsərdə Naxçıvan ərazisinin geoloji quruluşu, relyefi, iqlimi, su ehtiyatları, torpaq və bitki örtüyü, heyvanlar aləmi və landşaftları araşdırılmaqla, fiziki-coğrafi rayonlaşdırma vahidləri müəyyənləşdirilib və onlar geniş şərh edilib.

Kitabın bu ilin sonunadək nəşri nəzərdə tutulur.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə eksponatlar təqdim olunub

***Muxtar respublikamızda muzey fondlarının zənginləşdirilməsi məqsədilə iyul ayının 13-də Şahbuz rayonunun 3 sakini tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən 30 eksponat Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib. Bu eksponatlar içərisində qədim qablar, məişət əşyaları, küp, toxuculuq nümunələri və sair vardır.***



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Muzeylərdə xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 minə yaxın maddi-mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır. Son illərdə muzeylərimizə dövlət qayğısı xüsusilə qeyd edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivlərinin mütəşəkkil şəkildə muzeyləri ziyarət etmələrindən danışan nazir bildirib ki, bu ilin 6 ayı ərzində 217 mindən çox vətəndaş muzeylərimizi ziyarət edib.

Qeyd edilib ki, muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. 2016-cı ildə muxtar respublika muzeylərinə 1500-dən çox, bu ilin 6 ayı ərzində isə 759 eksponat daxil olub ki, bu eksponatlar da muxtar respublika sakinləri tərəfindən muzeylərə könüllü olaraq təqdim edilib. Naxçıvan Dövlət Tarix Muzeyində, Xan sarayında, Xalça Muzeyində, Cəlil Məmmədquluzadənin ev-muzeyində, Babək, Ordubad, Kəngərli, Culfa Rayon Tarix-Diyarşünaslıq muzeylərində bu cür təqdimatlar keçirilib.

Sonra eksponatları muzeyə hədiyyə edənlərdən Şahbuzkənd sakini Nihad Quliyev çıxış edərək deyib ki, maddi-mədəni irsimizin qorunması baxımından bu tədbirlər əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

**Əli RZAYEV**

# Abad qəsəbəmiz Heydərabad




### Tarix unudulmur

***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizim, o bizimdir deyirdilər".***

Uzaqgörən bir siyasətin ifadəsi olan bu sözləri ulu öndərimiz Heydər Əliyev Naxçıvana səfəri zamanı 2002-ci il avqust ayının 14-də Sədərək rayonunun sakinləri ilə görüşündə deyib. Zaman da ümummilli liderimizin gəldiyi qənaətin dolğun olduğunu bir daha təsdiq etdi. Bu gün Heydərabad düşmən qabağında mərdi-mərdanə dayanan müasir rayon mərkəzi, gəzməli, görməli, zövq almalı, adı ilə əzizləşən, doğmalaşan yurd yeridir.

27 il bundan əvvəl burada amansız döyüşlər gedib. Daha dəqiq desək, 1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərəyə hücum ediblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Təkcə 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Qədim yurd yerinin müdafiəsi vətənpərvər oğulların üzərinə düşüb. Muxtar respublikanın rayonlarından gələn igid eloğullarımız burada böyük qəhrəmanlıqlar göstəriblər. Həmin illərdə muxtar respublikamızın bütün bölgələrindən, həmçinin ölkəmizin 12 rayonundan Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 nəfər eloğlumuz şəhidlik zirvəsinə ucalıb ki, onlardan 52-si sədərəklidir. Qanlı döyüşlərdə qəhrəmanlıq göstərən polis kapitanı Məhərrəm Seyidov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Bu gün sərhəd bölgəsi olan Sədərək xaosda boğulan, gün keçdikcə bir az da iqtisadi böhranın uçurumlarına yuvarlanan düşmənin gözü qarşısında sabaha inamla addımlayır. Jurnalist həmkarlarımızdan birinin sözlərini xatırlayıram: Hər açılan sabah beşaddımlıqda olan düşmənə gözdağına, bizə göz ləzzətinə çevrilən Sədərəyin, onun mərkəzi Heydərabadın yeni uğurlarından soraq verir.

### Şəhər timsallı qəsəbə

Son vaxtlar Heydərabad qəsəbəsinə yolu düşənlər sevinc və təəccüb hisslərini gizlədə bilmirlər. Bu da təbiidir: sevinc və təəccübə səbəb təkcə onların könlünü-gözünü oxşayan yenilik, abadlıq və gözəllik deyil.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamından sonra sərhəd bölgəsində görülən işlər öz vüsəti ilə diqqəti çəkir. Həmin sərəncamdan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsinin nəticəsidir ki, ümummilli liderimizin adını daşıyan rayon mərkəzi abadlaşdırılaraq siması xeyli dəyişib, yaraşıqlı görkəmə gətirilib.



2010-cu ilin oktyabr ayında muxtar respublikaya səfəri zamanı ölkə Prezidenti cənab İlham Əliyev yenidən qurulan Heydərabad qəsəbəsinin açılışında iştirak edib, burada görülən işləri yüksək qiymətləndirib: ***"... Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublikanın rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir".***

Son illər dövlətin davamlı qayğısı və doğma yurdu canından artıq sevən insanların fədakarlığı qəsəbəni şəhərə çevirib desək, qətiyyən yanılmarıq. Şəhərlərə xas olan xüsusiyyətləri indi Heydərabadda hər addımda görmək olar.

Bəli, sərhəd bölgəsində düşmənlə üzbəüz dayanan, onun gözünə ox kimi batan, gündən-günə böyüyən, gözəlləşən Heydərabad öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Heydərabad qəsəbəsinin sakinləri bu yüksəliş və inkişafı, ilk növbədə, 1969-cu ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan quruculuq siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsi kimi dəyərləndirir, yüksək dövlət qayğısına bundan sonra da əməli işləri ilə cavab verəcəklərini söyləyirlər. Verdikləri sözə hər addımda əməl etdikləri də göz qabağındadır.

Bölgədə diqqətçəkən əsas cəhət adamlardakı yüksək əhval-ruhiyyə, yenilməz inam hissidir. Rayon sakinləri böyük qələbənin tezliklə gerçəkləşəcəyinə inanırlar. İnanırlar ki, onların firavan həyatı, yaxşı dolanışığı üçün qayğı və diqqətini əsirgəməyən, Qarabağ problemini özünün çoxsahəli fəaliyyətində həmişə prioritet məsələ hesab edən ölkə Prezidenti cənab İlham Əliyev müdrik siyasəti və yenilməz iradəsi ilə bu düyünü uğurla açacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır.

### Qəsəbə sakinləri dedilər ki...

Heydərabad qəsəbəsi barədə yazı hazırlayarkən statistik rəqəmlərə deyil, daha çox sədərəklilərin ürək sözlərinə diqqət yetirməyə çalışdım. İlk həmsöhbətim rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Teymur Quliyevdir:

– Əvvəlcə onu deyim ki, ulu öndər Heydər Əliyev dühası Sədərəyi erməni işğalından hifz etdi. Siz də yaxşı bilirsiniz ki, bu bölgədə, bu torpaqda nələr yaşanıb. Bütün bunlar öz yerində. İndi biz qurub-yaradır, əkib-becərməklə məşğul oluruq. Sərhədlərimizi göz bəbəyi kimi qoruyan əsgərlərimizə, Silahlı Qüvvələrimizə güvənirik. Bu gün xalqımız əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında üzərinə düşən məsuliyyətli missiyanın öhdəsindən layiqincə gəlməyə, torpaqlarımızı düşmən işğalından azad etməyə tam qadirdir. Unutmayaq ki, Heydər Əliyev siyasəti olmasaydı, bu gün yaşadığımız bu gözəl qəsəbənin də taleyi işğal olunmuş torpaqlarımızın taleyi kimi olacaqdı. Bir ağsaqqal kimi sevinirəm ki, bu gün Heydərabad, elə, bütövlükdə, rayon sakinləri bu həqiqəti dərindən dərk edirlər.

Rayon ziyalısı, qəsəbə tam orta məktəbinin müəllimi Rza Seyidov:

– Mən belə deyərdim: ulu öndər Heydər Əliyev Sədərəyi düşməndən qorudu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Sədərəyi yenidən qurdu. Ötən müddət ərzində Heydərabad qəsəbəsində, rayonun kənd yaşayış məntəqələrində xeyli həcmdə müxtəlif istiqamətli quruculuq tədbirləri həyata keçirilib. Mədəniyyət, təhsil, səhiyyə, rabitə və digər infrastrukturların normal fəaliyyəti üçün xeyli iş görülüb. Bu gün Sədərəyin şəhər timsallı rayon mərkəzində bütün dövlət qurumları müasir arxitektura üslubunda işlənmiş, maddi-texniki bazası gücləndirilmiş yeni binalarda fəaliyyət göstərirlər. Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə rayon mərkəzi salınarkən tikilmiş 49 mənzil yenidən qurulub, 16 yeni mənzil inşa olunub. Qəsəbədə həmçinin 18 müharibə veteranı üçün yeni evlər tikilib. Bütün bunlar dövlətimizin sərhəd bölgəsində yaşayan vətəndaşlarına, nəticə etibarilə, insanlara göstərdiyi qayğının bariz ifadəsidir. Onu da deyim ki, Heydərabad sakinləri belə qayğını dəyərləndirməyi bacarırlar. Rayon mərkəzində tikilənləri, qurulanları qoruyub saxlayır, qəsəbənin gözəlliyi naminə əllərindən gələni edirlər.

Heydərabad qəsəbə tam orta məktəbinin direktoru Əli Abbasov deyir ki, fəaliyyət göstərdikləri təhsil ocağında elmlərin ilkin sirlərinə yiyələnən şagirdlərin dövlətçiliyimizə sədaqət, ölkəmizə məhəbbət ruhunda tərbiyə olunması diqqət mərkəzində saxlanılır. Çünki bu gün sərhəd bölgəsində oxuyan məktəblilərdə belə keyfiyyətlərin formalaşdırılması, düzgün istiqamətləndirilməsi dövlətçiliyimizin möhkəmləndirilməsində başlıca amillərdir. Bunun üçün onlara hərtərəfli şərait yaradılıb. Müasir və işıqlı sinif otaqları, zəngin laboratoriyalar, elektron lövhəli və kompüter sinifləri burada təhsilin yüksək səviyyədə qurulmasına imkan verir. Pedaqoji kollektiv ulu öndər Heydər Əliyevin bütün nəsillər üçün örnək olan həyatı və siyasi fəaliyyətini bugünkü məktəblilərə dərindən aşılamaq üçün tədrisin mütərəqqi metodlarından lazımınca istifadə edir. Ulu öndərlə bağlı tez-tez müxtəlif mövzularda tədbirlər keçirilir, şeir və rəsm müsabiqələri təşkil olunur.

Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sərxan Abbasov: – Sədərəyin barıt qoxan qanlı-qadalı o günlərini xatırlayanda, bu gün gözqamaşdıran gözəlliyi ilə üzə gülən növrağına baxanda istər-istəməz ulu ozan Dədə Qorqudun məşhur bir deyimi yada düşür: "Torpağı qorumasan, əkib-becərməyə, əkib-becərməsən, qorumağa dəyməz..." Bu gün sədərəklilər torpağı əkib-becərməyi də, qorumağı da bacarırlar. Rayonun tarixi keçmişini gənc bölgə sakinləri, həmçinin buraya gələn qonaqlar tərəfindən öyrənmələri üçün muzeydə hərtərəfli şərait yaradılıb. 2000-ci ildən fəaliyyət göstərən muzey üçün 2010-cu ildə ikimərtəbəli yeni bina inşa olunub. Burada 2304 eksponat var. Muzeydə bir neçə şöbə yaradılıb. Muzeyi ziyarətə gələnlər burada Sədərək şəhidləri, İkinci Dünya müharibəsində iştirak edən sədərəklilər, Sədərəyin flora və faunası, bu qədim yurd yerində toxunmuş xalça nümunələri, rayonun keçdiyi inkişaf yolu barədə hərtərəfli məlumat ala bilərlər. Tez-tez muzeyə məktəblilərin gəlişini təşkil edirik. Burada görkəmli dövlət xadimi Heydər Əliyevə həsr olunmuş guşə öz zənginliyi ilə seçilir. Ulu öndərin rayonumuza gəlişləri zamanı çəkilmiş şəkillər, bu sərhəd bölgəsi ilə bağlı dahi şəxsiyyətin gördüyü işlərdən bəhs edən qəzet, jurnal materialları öz əksini tapıb. Muzeyin kollektivi ümummilli liderin qiymətli irsinin gənclərə öyrədilməsində fəallıq göstərir.

Rayon İcra Hakimiyyətinin əməkdaşı Samil Kazımov: – Günü-gündən gözəlləşən Heydərabad qəsəbəsində hər il yeni quruculuq tədbirləri həyata keçirilir. Bu, yaşayış məntəqəsinin ayrılmaz həyat ritminə çevrilib. Ötən il rayon Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Sədərək Rayon İdarəsi üçün yeni bina inşa olunub. Burada çalışan əməkdaşlara hərtərəfli iş şəraiti yaradılıb. Hazırda qəsəbədə 48 mənzilli ictimai yaşayış binası tikilir. Bu isə o deməkdir ki, Heydərabad quruculuq ab-havası ilə nəfəs alır.

Rayon ağsaqqalı Səməd Əliyev:

– Yaşımın bu vaxtında sevinirəm ki, doğma yurd yerinin bu gününü görürəm. Qəsəbəyə hər çıxdıqca qürur duyuram, fərəhdən qəlbim genişlənir. Sevinirəm ki, ulu öndərin özünün yaratdığı və adını daşıdığı bu qəsəbədə məskunlaşma getdikcə artır. Qəsəbədəki Heydər Əliyev Parkı biz ağsaqqalların daha çox üz tutduğu ünvandır. Burada salınan yaşıllıqlar göz oxşayır. Qısası, bu gün qəsəbə ulu öndərin özünün arzuladığı bir yaşayış məntəqəsinə çevrilib.

### Heydərabaddan qayıdarkən düşündüklərim

Dəfələrlə Heydərabadda olmuş, rayon mərkəzini qarış-qarış gəzmişəm. Hər gəlişimdə bu yaşayış məntəqəsinin saatbasaat, günbəgün dəyişdiyini görmüşəm. Dəyişməyən isə sakinlərin bu qədim yurd yerinə olan bağlılıqlarıdır. Düşmənlə bir addımlıqda ayıq-sayıq dayanan, quran, yaradan, sabaha daha böyük ümidlərlə baxan qəsəbə sakinlərinin məğrurluğu, qəhrəmanlığı, dövlətçiliyimizə sədaqəti, Vətənə məhəbbəti məndə böyük qürur hissi yaradıb. Heydərabadı göz bəbəyi kimi qoruyan, belə yurd yerində yaşayaraq rayonun iqtisadiyyatının gücləndirilməsinə töhfələr verən Heydərabad sakinlərinin vətən sevgisi qarşısında baş əymişəm. Onları bu sərhəd bölgəsinə bağlayan məhz ulu öndərə, dahi rəhbərin inşa etdirdiyi bu qəsəbəyə böyük ehtiramları və vətən sevgisidir.

**Muxtar MƏMMƏDOV**

# Çoxşaxəli iqtisadiyyat sürətli inkişafın əsasını təşkil edir

Ölkəmizin müasir sosial-iqtisadi inkişafında qeyri-neft sektorunu daha da genişləndirməklə idxal-ixrac arasında müsbət saldoya nail olmaq, istehsalla istehlakın nisbətini düzgün tarazlamaq əsas vəzifələrdən biridir. Çoxşaxəli iqtisadi inkişaf strategiyasını həyata keçirmək üçün neftdən asılılığı azaltmaq, bu məqsədlə Azərbaycanda iqtisadiyyatın digər sahələrinin və regionların inkişafına nail olmaq da əsas vəzifə kimi qarşıya qoyulub.

Ölkəmizin iqtisadiyyatı üçün strateji əhəmiyyətli belə vəzifələrin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikasının da mühüm payı vardır. Belə ki, blokada şəraitində olmasına baxmayaraq, həyata keçirilən iqtisadi layihələr sayəsində bu gün muxtar respublikada 371 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 250 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. 1995-ci illə müqayisədə muxtar respublikada sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 11,1 dəfə artıb.

Yerli istehsalın artması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırıb, idxalın həcmini isə azaldıb. Artıq 2009-cu ildən başlayaraq muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınmaqdadır. Ötən ilin yekunlarına əsasən muxtar respublikada xarici ticarət dövriyyəsinin 9,5 faizini idxal, 90,5 faizini isə ixrac təşkil edib.

Naxçıvanın ixracat imkanlarını artıran çoxşaxəli iqtisadiyyat yerli istehsal imkanlarından istifadə olunması, müxtəlifnövlü məhsul istehsalı ilə mümkün olub. Muxtar respublika ərazisində mövcud olan zəngin təbii ehtiyatlar, xammal, enerji və infrastruktur təminatı müxtəlif sahələrdə istehsal imkanları açır. Belə ki, bu gün Naxçıvanda Günəş və hidroenerji ehtiyatlarından da istifadə olunmaqla elektrik enerjisindən tutmuş duz, mineral sular, daş məhsulları, müxtəlif çeşiddə mebellərədək, avtomobillərdən spirtli içkilərədək geniş çeşiddə məhsul istehsalına nail olunub. Təkcə qida sənayesi sahəsində Naxçıvanda əldə olunmuş nailiyyətlər muxtar respublikada emal sənayesinin inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyətli olmaqla, həm də xammal kimi istifadə edilən yerli heyvandarlıq və bağ-bostan məhsullarının iqtisadi dövriyyəyə cəlb olunmasına da təkan verib. Bu gün Naxçıvanda ət və süd məhsulları, broyler, yumurta, bal istehsalı sahəsində ən yüksək göstəricilər əldə olunub, tələbatdan artıq məhsullar respublikamızın digər yerlərinə və xarici ölkələrə ixrac edilməkdədir. Sosial sahələrdə, turizm-rekreasiya sferasında təklif olunan xidmətlərin növü və çeşidi artıb şaxələndikcə daha çox yeni iş yerlərinin yaradılması və daimi məşğulluğun təmin olunması üçün də əlverişli şərait yaranır.

Muxtar respublikamızda istehsal imkanları genişdir. İqtisadi inkişafın sürətlənməsi ilə yeni iqtisadi layihələrin həyata keçirilməsinə verilən dövlət dəstəyi bu imkanlardan istifadə olunması üçün daha da əlverişli şərait yaradır. Yeni texnologiyanın tətbiqi ilə ənənəvi sahələrin yenidən dirçəldilməsi və yerli resurslardan daha səmərəli istifadə etməklə Naxçıvan öz iqtisadi potensialı ilə ölkəmizin iqtisadi qüdrətinə güc qatacaqdır.

**Əli CABBAROV**

# Rənglərdə zamanın təcəssümü

***İncəsənət ictimai şüurun formalarından biri, insanın mənəvi aləminin, onun həyata bədii estetik münasibətinin ifadəsidir. Bu sahədə çalışmayan insanlar belə, incəsənətin onların ruhuna xüsusi bir dinclik gətirdiyini təsdiq edərlər. Bəzi insanlar da var ki, ömrünü, həyatını məhz elə bu sahənin hansısa bir növünə həsr edib, onu yaşamının ayrılmaz bir parçasına çevirib. Həmin insanlardan biri də Həbibə Allahverdiyevadır.***



Həbibə xanım təsviri sənətlə məşğul olur. Onunla söhbət zamanı bildirdi ki, təsviri sənət hər hansı bir əşyanı fəzada düzgün qeyd etmək və yaxud fikrindən keçəni təsvir etmək bacarığıdır. Təsviri sənətə rəsm, qrafika, boyakarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət daxildir. Rəsm təsvirin əsasını təşkil edir. Rəssam müəyyən tablonu işləyərkən əşyaların formasını, həcmini rəsm dilində əks etdirir. Təsvirin həcmli, mühitin real görüntüsü üçün perspektiv və işıq-kölgə qanunlarına müraciət olunur. Rəsm kompozisiya ilə əlaqədardır və insanı bütün ömrüboyu müşayiət edir; şəkilli uşaq kitabları, xalçalar, keramika, qab-qacaq, abidələr...

Bu sənətlə məktəbli yaşlarından məşğul olan Həbibə Allahverdiyeva 1998-2002-ci illərdə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət ixtisasında bakalavr, 2002-2004-cü illərdə magistr pilləsində təhsil alıb. 2005-ci ildən Təsviri incəsənət kafedrasında baş müəllim kimi çalışır. 2010-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 2014-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülüb.

Bu il may ayının 8-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisi açılıb, sərgi 10 gün davam edib. Sərgidə rəssamın müxtəlif janrlarda işlədiyi 100-dən artıq rəsm əsəri nümayiş olunub. Burada yer alan rəsmlər öz rəngarəngliyi ilə diqqət çəkib. Sərgidə ümummilli lider Heydər Əliyevin kompozisiyalı portretləri ilə yanaşı, qədim Naxçıvanı da özündə əks etdirən əsərlər nümayiş etdirilib.

Məlumdur ki, Azərbaycan dünyanın zəngin mədəniyyətə, təbiətə, qədim və şanlı tarixə malik ölkələrindəndir. Hər bir vətəndaş bacardığı qədər ölkəsinin sahib olduğu dəyərli, qiymətli nə varsa onun təbliğatını aparmalı, tanıtmalıdır. Bu nöqteyi-nəzərdən Həbibə xanımın sərgidə yurdumuzun zəngin nemətlərini, qədim xalçalarını və sairi özündə əks etdirən rəsmləri maraq doğurub.

Naxçıvanın qədimliyi ilə müasirliyinin vəhdətini təcəssüm etdirən əsərlər o qədər ustalıqla işlənib ki, onlara baxan kimi müəllifin bu əsərlə insanlara nə çatdırmaq istədiyi cizgilərdən oxunur. Bu qəbildən olan əsərlərdən "Qədim Nuhçıxan", "Azərbaycan – yurdum mənim", "Dədə Qorqud" diqqəti daha çox cəlb edən rəsm əsərləri sırasındadır.

Rəssam Naxçıvanın sənət adamlarının portretlərinə də öz sərgisində yer ayırıb. Belə ki, "Araz dərdi", "Hüseyn Cavid", "Bəhruz Kəngərli" portretlərinin hər biri xüsusi həssaslıqla işlənib. Qadın dünyası da müxtəlif kompozisiyalarda əks olunub.

O, kətan üzərində yağlı boya ilə çəkilmiş bir rəsmində Türk dünyasının iki böyük siyasi liderini – ümummilli lider Heydər Əliyev və Atatürkü bir araya gətirib. Öz-özlüyündə hər biri öz xalqının xilaskarı olan bu iki liderin rəsminin qoşa əks olunduğu əsər sərgiyə baxanlarda xüsusi marağa səbəb olub.

Həbibə Allahverdiyevanın fərdi sərgisi muxtar respublika ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb. Həm də pedaqoji fəaliyyətlə məşğul olan rəssam, heç şübhəsiz ki, istedadlı gənc rəssamların yetişməsində də bacarığını əsirgəmir.

Qeyd edək ki, ötən ayın 20-də Həbibə xanımın Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda "Nuh yurdunun rəngləri" adlı fərdi sərgisi də sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Sərginin açılışında Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Naxçıvan Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva rəssamın yaradıcılığını mövzu rəngarəngliyi və təsvir orijinallığı baxımından yüksək qiymətləndiriblər.

İnanırıq ki, istedadlı rəssam Həbibə Allahverdiyeva bundan sonra hələ neçə-neçə gözəl rəsm əsəri ilə bu sənətin pərəstişkarlarını sevindirəcək.

**Fatma BABAYEVA**

***Ulu öndər Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılıb, gələcək inkişaf perspektivləri müəyyənləşdirilib. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülüb, bir çox idman kompleksləri, qurğuları, zalları tikilib, meydançalar salınıb, böyük idman-sağlamlıq mərkəzləri yaradılıb. Ötən əsrin 69-82-ci illərində ümummilli liderin təşəbbüsü ilə ölkənin 36 rayonunda 59 Uşaq-gənclər idman məktəbi fəaliyyətə başlayıb. Bu illərdən etibarən bütün respublikada, paytaxt Bakı ilə yanaşı, bölgələrdə də idmanın inkişafına diqqət artırılıb, muxtar respublikamızın kəndlərində gənclərin ixtiyarına sadə meydançalar, idman salonları və kompleksləri, şahmat məktəbləri verilib, uşaq, yeniyetmə və gənclərin idmanla məşğul olmaları üçün mühüm addımlar atılıb.***

# Yeni yaradılan stadionlar idmanın inkişafına töhfə verir









Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın kütləvi hal alması, gənclərin bu sahəyə cəlbi və onların asudə vaxtlarının səmərəli təşkili üçün hər bir şərait yaradılıb. Hazırda regionun şəhər və rayonları ilə yanaşı, kəndlərində də idmanın inkişafı üçün mühüm addımlar atılır. Təbii ki, belə addımlar istedadlı gənclərin üzə çıxmasına, onların bu sahədə yüksək nəticələr əldə etməsinə və üçrəngli bayrağımızı beynəlxalq arenalarda dalğalandırmasına səbəb olur.

İdmanın inkişafı infrastrukturun geniş, çoxşaxəli olmasından asılıdır. Yəni idman obyektləri, zalları, kompleksləri nə qədər çox olarsa, qazanılan uğurların sayı da bir o qədər çox olacaq. Naxçıvan bu baxımdan ölkədə tanınan regiondur. Demək olar ki, hər bölgəsində tikilən, yenidən bərpa olunan idman obyektlərinin qapıları bu gün muxtar respublika sakinlərinin üzünə açıqdır.

Yeni istifadəyə verilən idman obyektləri arasında futbol meydançalarını xüsusi qeyd etmək lazımdır. Niyəsinə gəlincə, bu stadionların kəndlərdə olması diqqəti daha çox cəlb edir. Xüsusilə yeni tikilən stadionların müasir standartlara cavab verməsi yeniyetmə və gənclərin futbola marağını birə-beş artırır. Bəs yeni istifadəyə verilən stadionlardan gənclər necə yararlanırlar?

İlk olaraq Şərur rayonunda istifadəyə verilən stadionlar barədə. Aralıq kəndində yenidən tikilən futbol meydançasının uzunluğu 96, eni isə 51 metrdir. Bu stadionun ot örtüyü xüsusi toxum vasitəsilə yaradılıb. 156 tamaşaçı tutumu olan stadionda paltardəyişmə otaqları, hakim otağı idmançıların ixtiyarındadır. Hazırda bu meydançada 11, 12, 13 və 14 yaşlı uşaqların məşqləri keçirilir. Eyni zamanda gənclərin də ixtiyarında olan arenada kəndlərarası çempionat oyunları da təşkil olunur. Mahmudkənd stadionu da öz görüntüsü ilə kəndə xüsusi gözəllik verir. Uzunluğu 106, eni 60 metr olan stadion 104 tamaşaçı tutumuna malikdir və burada gənclərin məşq keçmələri üçün hər bir şərait yaradılıb. Təsadüfi deyil ki, bu stadion kəndlərarası çempionat oyunlarına ev sahibliyi edir. Bundan başqa futbol üzrə muxtar respublika çempionatının bəzi oyunları da burada keçirilir. Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov bizimlə söhbətində bildirdi ki, bu stadionların istifadəyə verilməsi rayonda futbola olan marağı xeyli artırıb, istedadlı gənclərin üzə çıxmasına imkan verib. Təsadüfi deyil ki, bu stadionların tikilişindən sonra gənclər mütəmadi olaraq rayonun futbol komandasının heyətinə cəlb olunurlar.

Şərur rayonunda yeni bərpa olunan stadionlardan biri də Aşağı Yaycı kənd stadionudur. Meydançanın uzunluğu 96, eni isə 52 metrdir. 84 nəfərlik tutuma malik olan stadionun ot örtüyü də yenidən salınıb. Bu stadiondan kənd sakinləri ilə yanaşı, qonşu kəndlərin də idmançıları yararlanırlar.

Rayonda idmançıların ixtiyarına verilən stadionlardan biri də Arbatan kəndindədir. Stadion 120 tamaşaçı tutumuna malikdir. Uzunluğu 60, eni isə 40 metr olan meydançada rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulub. Uzunluğu 105, eni 60 metr olan təbii ot örtüklü Dəmirçi kənd stadionunun ərazisində isə 118 nəfərlik oturacaqlar quraşdırılıb. Həmçinin stadionun ərazisində 50 tamaşaçı tutumlu voleybol meydançası inşa edilib və idman qurğuları ilə təmin olunub. Stadionun kənarları hasarlanıb.

Bu stadionlarda mütəmadi olaraq futbol yarışları, həmçinin digər idman növləri üzrə turnirlər, birinciliklər təşkil olunur. Ramil Dadaşov bildirdi ki, stadionlarda məşqlərin təmini üçün ilk olaraq, yeni istifadəyə verilən meydançalar diqqətdə saxlanılır. Stadionların ot örtüklərinin ideal qalması üçün meydançalar sulanır, həmçinin xüsusi otbiçən maşınla biçilir. Əsas məqsədimiz uşaq və yeniyetmələrdə bu idman növünə olan marağı daha da artırmaq, eyni zamanda kənd əhalisinin asudə vaxtını səmərəli təşkil etməkdir. Demək olar ki, yeni stadionlarda hər gün məşqlər aparılır və mütəmadi olaraq kəndlərarası futbol birincilikləri keçirilir. Bu yaxınlarda Aralıq kənd stadionunda başa çatan birincilik bir daha göstərdi ki, bu meydançalar kəndlərin futbol komandaları arasında rəqabəti xeyli artırıb. Təbii ki, bu rəqabət istedadlı futbolçuların da üzə çıxmasına zəmin yaradır.

Yeni bərpa olunan futbol meydançasından biri də Culfa rayonundakı Bənəniyar kənd stadionudur. Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli deyir ki, stadion idmançıların ixtiyarına verildikdən sonra Bənəniyarla yanaşı, qonşu kəndlərin futbolçuları da meydançadan yararlanırlar. Həmçinin futbol meydançası məktəbə yaxın olduğundan şagirdlər də buradan istifadə edirlər. Rayonun futbol komandası stadion yenidən bərpa olunduqdan sonra məşqlərini və bəzi oyunlarını bu arenada keçirir. Təbii ot örtüyünə malik olan stadionun uzunluğu 90, eni 65 metrdir.

Göründüyü kimi, idmanın inkişafı üçün muxtar respublikada şəhər və rayonlarla yanaşı, kəndlərdə də idman obyektləri yeniyetmə və gənclərin ixtiyarına verilib. Bunları qorumaq və idman obyektlərindən maksimum yararlanmaq isə hamımızın borcudur.

**Ceyhun MƏMMƏDOV**


**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi**
***2017-ci ildə aşağıdakı lotlar üzrə malların satın alınması məqsədilə kotirovka sorğusu elan edir***

*Lot-1. Avtomobil yolları nişanları və xətlərinin çəkilişində istifadə olunan boyaların satın alınması.*
*Lot-2. Şüşə tozunun satın alınması.*
*Lot-3. Sellülozik tinərin satın alınması.*

Kotirovka təklifləri 9 avqust 2017-ci il saat $13^{00}$-dək qəbul olunacaq.

Təklif zərfləri 11 avqust 2017-ci il saat $10^{00}$-da açılacaqdır.

***Ünvan: Naxçıvan şəhəri, N. Əliyev küçəsi 2.***

***Maraqlananlar (036) 545-14-54 və ya (050) 514-67-67 nömrəli telefonla əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs: Musa Əliyev***



***İtmişdir***

Qurbanov Elmin Cabbar oğlunun adına Şahbuz Rayon Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş L-06135 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 566